

Rusiyada yaşayan azərbaycanlı iş adamı Araz Ağalarov və müğənni-bəstəkar Emin rəhbərlik etdikləri alış-veriş mərkəzinin 2 yaşını təmtəraqlı şəkildə keçiriblər.

AzNews.az axşam.az-a istinadən xəbər verir ki, həmin gün eyni zamanda “Muz tv”nin də yaranmasının ildönümü qeyd olunub. Rusiya şou-biznesinin tanınmış simalarının qatıldığı gecədə təşkilatçılar qonaqlar üçün bir çox sürprizlər hazırlayıblar.

Gecəyə Lera Kudryavseva və Andrey Razıqrayev aparıcılıq edib. Maraqlı anların yaşandığı mərasimdə nostalji məkan, əyləncəli parti, fotosessiya kimi hissələr olub.

